**“Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Latviya Respublikasının Qida və Baytarlıq Xidməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nu imzalamaq səlahiyyətinin verilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının $110^1$-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Latviya Respublikasının Qida və Baytarlıq Xidməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar İlahi oğlu Təhməzliyə verilsin.

2 . Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində qeyd olunan Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar İlahi oğlu Təhməzliyə verildiyi barədə Latviya Respublikası Hökumətinə bildiriş göndərsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 18 may 2022-ci il
3261